AZƏRBAYCAN TÜRKİYƏ İŞ ADAMLARI BİRLİYİ
AZERBAIJAN TURKEY BUSINESS ASSOCIATION

## MƏTBUAT ÜÇÜN AÇIQLAMA

## ATİB İdarə Heyətinin sədri Ahmet Erentok Kanadada işgüzar görüşlər keçirmişdir

**No: 09/32/111**
**27.08.2009**

Azərbaycan Türkiyə İş Adamları Birliyinin (ATİB) İdarə Heyətinin sədri və Azərbaycan Türkiyə Tarix Araşdırmaları Fondunun (ATAF) İdarə Heyəti sədrinin müavini Ahmet Erentok Kanadanın Toronto şəhərində işgüzar səfərdə olmuşdur.

Ahmet Erentok səfər çərçivəsində Atlantik Şurasının Prezidenti Juli Lindhout, Kanada Türk Dərnəkləri Federasiyasının Prezidenti və Xarici İqtisadi Əlaqələr Şurası (DEİK) İdarə Heyəti üzvü Nedim Düzenli, Kanada Azərbaycan Ticarət Mərkəzinin Sədri Roman İbrahimov, Ontario Azərbaycanlıları Assosiasiyasının rəhbəri Cavad Zərrin, Azərbaycan-Kanada Dostluq Assosiasiyasının rəhbəri Esmira Əsədova, Azərbaycan Mədəniyyət və Təhsil Mərkəzinin rəhbəri Əkbər Məcidov, AzCan Media Yayım şirkətinin Direktorlar Şurasının üzvü Eldar Məlik-Abbas, Kanada İmmiqrant İnvestor proqramının müşaviri Hüseyn Kuday ilə görüşmüşdür.

Görüşlər zamanı Ahmet Erentok regionda ilk olaraq yalnız QHT-lərin birləşməsindən yaranmış Qara dəniz və Xəzər Dənizi Sahibkarlar Konfederasiyaları Birliyinin (UBCCE) fəaliyyətindən danışdı, yaxın gələcəkdə Almaniya, Avstriya kimi ölkələrin təşkilata üzv olacağını bildirmişdir.

ATİB sədri Azərbaycan Türkiyə Tarix Araşdırmaları Fondunun (ATAF) təsis edilməsində əsas məqsədin hər iki xalqın ortaq problemi olan erməni problemi ilə bağlı tarixi həqiqətlərin üzə çıxarılması olduğunu söylədi: “Düşünürəm ki, Türkiyə və Azərbaycan olaraq bir-birini daha yaxından tanımalı, problemləri daha yaxşı bilməli və bu məsələləri birlikdə həll etməliyik”. A.Erentok həmçinin türklər və ermənilər arasındakı problemlərlə bağlı həqiqətləri əks etdirəcək cib kitabçalarının nəşrinin nəzərdə tutulması haqqında məlumat verdi.

Görüş iştirakçılarına həmçinin, ATİB-in konsepsiya və layihələri - ölkələrimiz arasındakı yaxın bağları əks etdirən BİS (Bağlar, İlişkiler, Sinerji) konsepsiyası, Azərbaycan-Türkiyə-ABŞ əlaqələrinə həsr olunmuş ATUS (Azerbaijan-Turkey-United States) layihəsi; ATİB-in təsisçi olduğu Azərbaycandakı bütün biznes assosiasiyalarını birləşdirən ABİF (Azərbaycan Beynəlxalq İş Adamları Federasiyası), Təhsil TV layihəsinin də daxil olduğu ATİF (Azərbaycanda Təhsilin Inkişafı Fondu) haqqında ətraflı məlumat verdi.

Görüş çərçivəsində həmçinin müştərək fəaliyyətlər və gələcək əməkdaşlıq perspektivləri müzakirə edildi.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az
**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**